DÖVLƏT VERGİ XİDMƏTİ

# Gəlirdən çıxılan xərclərlə bağlı bunları bilməlisiniz!

## Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən

❖ Vergi ödəyicisinin mənfəət (gəlir) vergisi üzrə güzəşt hüququ olduğu dövrdə amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan məbləğlər güzəşt hüququ başa çatdıqdan sonrakı illərin gəlirdən çıxılan məbləğlərinə əlavə edilmir.

## Nə dəyişdi?

Vergi ödəyicisi mənfəət (gəlir) vergisi üzrə güzəşt hüququ olduğu dövrdə amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan məbləğləri güzəşt hüququ başa çatdıqdan sonrakı illərin gəlirdən çıxılan məbləğlərinə əlavə edə bilməyəcək.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanununda göstərilən mallar *(kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu, əlvan və qara metal qırıntılarının qəbulu, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu, utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu, xam dərinin tədarükü (alışı)),* habelə daşınmaz əmlak, avtomobil nəqliyyatı vasitələri və daşınar əsas vəsaitlər istisna olmaqla;
- digər malların vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı əsasında alınması və ya malların vergi ödəyicilərindən Vergi Məcəlləsinin tələblərinə cavab verən nəzarət-kassa aparatının çeki əsasında alınması üzrə **gəlirdən çıxılan xərclərin yuxarı həddi vergi ödəyicisinin hər il üçün gəlirlərinin və xərclərinin ən yüksəyinin hər bir hal üzrə 2 faizi həddində məhdudlaşdırılır və bu həddən yuxarı məbləğ gəlirdən çıxılmır.**

**Nə dəyişdi?**

Vergi ödəyicisinə alış aktları ilə rəsmiləşdirilməli əməliyyatların tənzimlənməsi məqsədilə bu xərclərin normalaşdırılması və **2 faiz** həcmində normanın tətbiq edilməsi və nəzarət-kassa aparatının çeki əsasında alınan malların dəyərinin müəyyən hədd daxilində (**illik gəlirlərin və xərclərin ən yüksəyinin 2 faizi həddində**) gəlirdən çıxılan xərclərə aid edilməsi hüququ verilmişdir.

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Gəlirdən çıxılan xərclər qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir. Qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən xərclərin gəlirdən çıxılmasına yol verilmir.

**Nə dəyişdi?**

Sənədsiz xərclərin gəlirdən çıxılması məhdudlaşdırılır və qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən xərclərin gəlirdən çıxılmasına yol verilmir.

**QEYD:** Bəzi sahələrdə xərclərin sənədlərlə rəsmiləşdirilməsində çətinliklərin mövcudluğunu nəzərə alaraq, ilkin olaraq vergiyə cəlb edilən mənfəət (gəlir) müəyyən edilərkən sənədlərlə rəsmiləşdirilən faktiki mənfəət (gəlir) 1 yanvar 2025-ci il tarixədək rentabellik səviyyəsi **50 faizdən** çox olmayaraq müəyyən edilir.